**A. Yazdani**
Berlin, jazdani@gmx.de

# Federal İran və Azərbaycan xalqının hüquqları

İran'da yaşayan millətlərin konüllü birliyi əsasında qurulmuş Federativ cümhuri sistemdə Azərbaycan xalqı bu hüquqlara malikdir:

-Azərbaycan cümhurisində tam hakimiyyət Azərbaycan xalqınındır.

-Azərbaycan xalqı öz milli dövlət, milli məclis və milli bayrağına malikdir.

-Azərbaycan cümhurisində bütün qanun verici, məhkəmə sistemi, daxili intizamat, təbəəlik məsələsi və mədəni ümurat yalnız Azərbaycan dövlətinin səlahiyyətindədir.

-Xarici siyasətdə gəldikdə, Azərbaycan dövləti xarici ölkələrlə mədəni, siyasi və iqtisadi əlaqələrin qurmasında muxtardır.

-Azərbaycan cümhurusu beynəlxalq təşkilatlarda üzv olmaq haqqına sahibdir.

-Azərbaycan cümhurisinin daxili əmniyyət və intizamati yalnız Azərbaycan hükumətinin ixtiyarındadır. Azərbaycan'ın

daxili əmniyyət və intizamat işlərində mərkəzi silahlı qüvvələrin müdaxilə etməsi qətiyyətlə qadağandır.

-Azərbaycan cümhurisində rəsmi dil Azərbaycan dilidir. Bütün idarə və müəssisələr (ictimai, dövləti, milli, ticarəti) öz işlərini Azərbaycan Türkcəsində aparmalıdır. Azərbaycan'da təhsilatın bütün mərhələləri Azərbaycan Türkcəsində keçirilməlidir. Məktəblərdə Fars dili 5-ci klasdan yuxarı tədris olunur.

Mərkəz və başqa yerlərlə mükatibə Azərbaycan Türkcəsində və Fars dilində olmalıdır.

-İran'da Türkdilli insanların sayi Farsdilli insanlardan daha çox olduğu üçün, Azərbaycan Türkcəsi Fars dili ilə yanaşı İran'ın rəsmi dili olmalıdır.

-Mərkəzin şura məclisində Azərbaycan nümayəndələri Azərbaycan Türkcəsində çıxış etməlidir.

-Nümayəndələrin sayı Azərbaycan xalqının nüfusuna görə tə´yin olmalıdır.

-Güney Azərbaycan'ın hüdudları, tarixi sənədlər, eləcə də qonşu məntəqələr ilə həmsərhəd olan əhalinin azad istəyi ilə tə´yin olmalıdır.

**Berlin, 29.09.02   A. Yazdani**